MÜBARİZƏ TƏDBİRLƏRİ:

İstehsal sahəsindəki bitkilər mütəmadi olaraq yoxlanılmalı və virusun simptomları olan bitkilərin üzərinə böyük plastik torbalar keçirilərək diqqətlə çıxarılmalı, sağlam bitkilərə toxunmadan istixanadan kənarlaşdırılaraq yandırılmalıdır;

Tozlanmada istifadə edilən Bombus arılarının virusla sirayətlənmiş bitkilərlə təmasını nəzərə alaraq yoluxma aşkarlanan istehsal sahəsində ocaqlar məhv edildikdən sonra arı koloniyaları dəyişdirilməlidir;

İstehsal sahəsində çalışan işçilər təmiz iş paltarı və əlcək istifadə etməli, istixananın hər bölməsi üçün iş paltarlarını dəyişməlidirlər;

Əllər tez-tez sabunlu su ilə yuyulmalı, istixanaların giriş qapılarında dezinfektant hopdurulmuş ayaqaltı qoyulmalıdır;

Alət və avadanlıqlar təmizlənməli və dezinfeksiya edilməlidir.

Məhsulun qablaşdırılmasına xüsusi nəzarət edilməli, xəstəliyin əlamətləri olan məhsullar çeşidlənərək kənarlaşdırılmalıdır. İşçilər istehsal sahəsindən qablaşdırma sahəsinə və ya əksinə keçməməli, istehsal sahəsində çalışan işçilər xəstəliyin əlamətləri və profilaktik tədbirlər barədə maarifləndirilməlidirlər;

İstehsal sahələrində virusdan qorunmaq üçün gigiyena qaydalarına riayət edilməli, xəstəlik mütəmadi monitorinqlərlə nəzarət altında saxlanılmalı və müəyyən olunduğu ərazilərdə ocaqlar məhv edilməlidir.

Sirayətlənməsi və yayılması olduqca asan və tez, mübarizəsi isə həddindən artıq çətin olan pepino mozaika virusuna qarşı ən səmərəli mübarizə üsullarından biri davamlı sortların əkilməsidir.

Azərbaycan Respublikasının
Qida Təhlükəsizliyi Agentliyi

info@afsa.gov.az

www.afsa.gov.az

+994 12 377 00 77

1003
Çağrı mərkəzi



AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QIDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

PEPİNO MOZAİKA VİRUSU

Pepino mozaic virus (PepMV)

Meyvə bitkiləri üçün təhlükə mənbəyi!

PEPİNO MOZAİKA VİRUSUNUN BİTKİLƏRDƏKİ ZƏDƏLƏRİ

Pomidor istehsalında məhsuldarlığı və meyvənin əmtəəlik keyfiyyətini aşağı salan ən təhlükəli viruslardan biri hesab olunur. Virus hazırda Solanaceae fəsiləsinə mənsub olan pomidor, badımcan kimi tərəvəz bitkilərini sirayətləndirsə də, virusun genomunda gedən dəyişiklik hesabına pomidorla yanaşı kartofa və digər istehlak əhəmiyyətli bitkilərə də yoluxma riski vardır.

Pepino mozaika virusu əkin və səpin materialı kimi idxal edilən pomidor və bibərin toxum və şitilləri ilə yeni areala yayıla bilir. İstehlak məqsədilə idxal olunan yoluxmuş pomidor meyvələri də virusun introduksiyasına zəmin yaradır.

Pepino mozaika virusunun yayıldığı ölkələrdə virusun yayılmasının qarşısını almaq və ixrac prosesini stabil saxlamaq, toxumları virusdan təmizlənmiş sahələrdən və ya virusdan azad ərazilərdən əldə etmək müasir dövrün vacib məsələlərindən biridir

MORFOLOJİ VƏ BİOLOJİ XÜSUSİYYƏTLƏRİ:

Pepino mozaika virusu 508 nm uzunluğunda olub, çöpşəkilli quruluşdadır. Genomu təxminən 6,4 kb uzunluğunda ssRNT molekulundan ibarətdir. İndiyə qədər PepMV-nin 5 ana genotipi müəyyən edilmişdir: Peru (LP), Avropa (EU), Amerika (US1, US2), Çili (CH2) və Cənubi Peru (PES). Yoluxmuş bitkilərin yarpaq, kök və meyvələri yüksək konsentrasiyada virus daşıya bilər. Otaq temperaturunda nisbətən stabil qalır, sirayətlənmiş səthlərdə və bitki qalıqlarında həftələrlə virulentliyini saxlayır. Virus quru bitki materialında 3 ay, geyimdə 14 gün yoluxuculuq qabiliyyətini saxlayır. Köklərdən çıxan virus hissəciklərinin torpağa və ya drenaj suyuna qarışması ehtimalı yüksəkdir.

İNKİŞAFI

Təbii şəraitdə bitki şirəsində 1 həftə, şirə 20°C-də saxlanıldıqda 3 ay, yoluxmuş bitkinin kök hissəsində 4 həftə, nəm şəkildə 10°C-də saxlanıldıqda 3 ay, yarpaqlar 20°C-də saxlanıldıqda 2 il, şüşə səthdə 15°C-də 3 həftə və 25°C-də isə 4 gün yoluxma qabiliyyətini itirmir. Virus 70°C-də inaktiv hala gəlir və yoluxma qabiliyyətini itirir.

SİMPTOMLARI:

PepMV-nin simptomları virusun genotipinə, sahib bitkinin növünə, vegetasiya və iqlim şəraitinə görə dəyişir, kök, gövdə, yarpaq və meyvədə rast gəlinir. PepMV ilə bitkinin yoluxmasının ümumi əlaməti meyvənin mərmər görünüşlü olması və yarpaqlarda xlorotik rəng dəyişkənliyidir.

Yarpaqlar isə kiçik və parlaq sarı ləkələr, sarı-yaşıl mozaika, xloroz, deformasiya, uc yarpaqların yüngül qıvrılması, yaşıl yarpaqlarda "xallanma" kimi fərqli viral simptomlar ilə müşahidə edilir. Yoluxmuş bitkilərdə apikal hissədə hüceyrələrin bölünməsi demək olar ki, dayanır. İlk simptom sirayətlənmədən 2-3 həftə sonra görünür.

Meyvədə çatlama, deformasiya, qeyri-bərabər yetişmə, kasa yarpaqlarında qəhvəyi rəng dəyişkənliyinə rast gəlinir. Virusun əlamətləri təbii işıqlanmanın aşağı olduğu payız və qış fəslində daha asan nəzərə çarpır. Temperaturun yüksək və günəş işığının bol olduğu aylarda bitki yoluxsa da, simptomlar zəif müşahidə edilir.

PEPMV-NİN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ:

Virusun ölkələr arasında yayılmasında toxum ticarəti mühüm rol oynayır. Şitil, meyvə, həmçinin, idxal prosesi zamanı sirayətlənmiş qablaşdırma materialları və təmas yolu ilə də yayıla bilir. Virusun istixana şəraitində yetişdirilən pomidor meyvəsində yaratdığı simptomlar 40%-ə qədər məhsul və keyfiyyət itkisinə səbəb olur.